# "Zəfər himni" kantatası

**Tarix boyu Azərbaycanın ərazisi müxtəlif siyasi məqsədlərlə bölünmüş, parçalanmış, təbii sərvətləri talanmış, sakinləri köçkün düşmüşdür. Bu tarixi prosesdə erməni qəsbkarlarının işğalçı siyasəti xüsusi rol oynamışdır. 30 ilə yaxın torpaqlarının 20%-i düşmən tapdağı altında qalan yurdumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində işğaldan azad olunmuş, ərazi bütövlüyümüz bərpa olunmuşdur. Dünya siyasi arenasında qətiyyətli, uzaqgörən siyasət yürüdən Prezidentimiz öz müzəffər ordusu ilə bizə Zəfər sevinci yaşatdı. Ümid edirik ki, erməni qəsbkarlarının viran qoyduğu Qarabağ torpaqları tez bir zamanda bərpa olunacaq, öz əzəli sakinlərinə qovuşacaq. Bu tarixi zəfər hər bir azərbaycanlının qəlbində sonsuz fərəh hissi oyadaraq, mədəniyyət, incəsənət sahəsində yeni-yeni əsərlərin meydana gəlməsinə səbəb olmuşdur.**

Əməkdar müəllim, Əməkdar incəsənət xadimi, pedaqoji elmlər doktoru, professor, Rusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyasının həqiqi üzvü, Prezident təqaüdçüsü, görkəmli bəstəkar Oqtay Rəcəbov da xalqının müstəqilliyi, ərazi bütövlüyü uğrunda keçdiyi tarixi yolu öz yaradıcılığında əks etdirməyə çalışmışdır. Onun yaradıcılığında balet janrı istisna olmaqla, dünya musiqi mədəniyyətinin bütün janrları öz əksini tapmışdır. Bəstəkarın 400 mahnısı, 3 oratoriya, 3 kantata, 8 opera konsertləri, xor və instrumental əsərləri nəinki Azərbaycanda, eyni zamanda Türkiyə, İran, Rusiya, Fransa, İngiltərə, Almaniyada dinləyici auditoriyasının rəğbətini qazanmışdır. Oqtay Rəcəbovun yaradıcılığında kinofilmlərə yazılan musiqilər də mühüm yer tutur. O, Rusiya Mərkəzi Telekanalının sifarişi ilə bədii filmə ("Qız, oğlan və şir" filminə) və İran İslam Respublikasının sifarişi ilə 4 filmə musiqi bəstələmişdir.

Oqtay Rəcəbovun Azərbaycanın Vətən müharibəsindəki qələbəsindən ruhlanaraq yazdığı "Zəfər himni" kantatası Ali Baş Komandanımız İlham Əliyevə və onun həyat yoldaşı Mehriban xanım Əliyevaya həsr olumuşdur. Simfonik orkestr, solistlər, xor üçün nəzərdə tutulmuş bu əsər tanınmış şair Baba Vəziroğlunun sözlərinə yazılmışdır. Qeyd etmək lazımdır ki, bu kantata keçən ilin sentyabr ayında Bakıda həyata keçirilən Azərbaycan Bəstəkarlar İttifaqının 85 illik yubileyinə həsr olunmuş və Heydər Əliyev adına sarayda keçirilən yubiley konsertində ilk dəfə səslənmişdir.

Kantata 3 hissədən ibarətdir:
I hissə - "Zəfər yolu"
II hissə - "İki qəlbin dastanı"
III hissə - "Zəfər himni"

Nəşr olunmuş "Zəfər himni" kantatasının ilk səhifələrində Prezidentimizin xanımı Mehriban Əliyeva ilə azad olunmuş Qarabağ torpaqlarında birgə şəkli öz əksini tapmışdır. Bu şəkillərdə qalib xalqın mübariz əhvali-ruhiyyəsi də çox gözəl hiss olunur. Təsvirdə Ali Baş Komandanımızın qətiyyətli addımlarından hiss olunur ki, Qarabağ torpaqları artıq həmişəlik xalqımıza məxsusdur.

Aramlı - cəld tempdə başlayan I hissənin musiqisi məzmunun xarakteri ilə uyğunluq təşkil edərək xorun və simfonik orkestrin müşayiətində çox gözəl səslənir. Rondo formasında yazılan I hissənin mətnində Azərbaycan torpaqlarının illər boyu erməni tapdağında olduğu, eləcə də 90-cı illər yanvar faciəsi aşağıdakı sətirlərdə öz əksini tapmışdır:

**(A)** İllər gəlib keçdi - çox ağır illər,
Tarix zaman-zaman bizi sınadı.
Şəhid qanı ilə boyandı güllər,
Sınmadı qartalın polad qanadı.

**(B)** Qırmızı qar yağdı bir bəyaz Yanvar,
Od-alovdan keçdi azadlıq yolu.
Hər zülmət gecənin bir səhəri var
Bir sabah açıldı - işıqla dolu.

Kantatanın "İki qəlbin dastanı" adlanan II hissəsi soprano və bariton səslərinin dueti üçün nəzərdə tutulub. Bu hissədə ölkə Prezidenti və onun xanımının obrazları musiqi ifadə vasitələri ilə təsvir olunub.

III hissə "Zəfər himni" adlanır. Bu hissə sadə 3 hissəli formada yazılıb. Finalda ədalətin zəfər çalması musiqi ifadə vasitələri ilə təntənəli surətdə səslənir.

"Zəfər himni" kantatasında Azərbaycan klassik muğamlarının intonasiyalarından çox məharətlə istifadə olunub. Belə ki, əsərin I hissəsi "Rast", II hissəsi "Segah" və "Şur", III hissəsi isə "Çahargah" və "Rast" muğamlarının intonasiyalarına əsaslanır. Məhz bu prinsiplərə əsaslanan "Zəfər himni" kantatası dinləyicilər tərəfindən asanlıqla başa düşülür və qavranılır. Bu əsər son dövrdə respublikamızda vətənpərvərlik mövzusunda yazılan ən yaxşı əsərlərdən biridir.

**Sevinc SEYİDOVA,**
**Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin Qeydiyyat, qiymətləndirmə və monitorinq şöbəsinin müdiri.**

Respublika .- 2021.- 28 dekabr.- S.14.